**"ALPA" Açıq Səhmdar Cəmiyyəti**

Hər birinin nominal dəyəri 2500 (iki min beş yüz) manat olan 80 (səksən) ədəd adi adlı sənədsiz səhmlərin

# EMİSSİYA PROSPEKTİ

Bakı 2025-ci il

## MÜNDƏRİCAT

BƏYANAT ... 4
XÜLASƏ ... 5
1. XƏBƏRDARLIQ ... 5
2. EMİTENT BARƏDƏ MƏLUMAT ... 5
3. SƏHMLƏR HAQQINDA MƏLUMAT... ... 8
4. RİSK FAKTORLARI ... 10
5. TƏKLiF ... 12
SƏHMLƏRİN EMİTENTi BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR ... 16
6. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATl ... 17
7. EMİTENT BARƏDƏ MƏLUMAT ... 17
8. EMİTENTİN BİZNESİNİN İCMALI ... 18
9. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ... 20
10. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ ... 20
11. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI ... 21
12. EMiTENTİN KAPİTAL RESURSLARI ... 24
13. TƏDQiQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR ... 25
14. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ... 25
15. GƏLiR PROQNOZU ... 27
16. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ... 27
17. EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI ... 28
18. İCRA ORQANININ İŞGÜZAR PRAKTİKASI ... 29
19. EMİTENTİN İŞÇİ HEYƏTİ ... 30
20. EMİTENTİN NiZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHiB OLAN SƏHMDARLAR ... 30
21. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR ... 31
22. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ... 31
23. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ... 37
SƏHHMLƏR BARƏDƏ MƏLUMAT ... 40

24. ƏSAS MƏLUMAT....................................................................................................................40
25. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT ..............................................................42
26. TƏKLİFİN ŞƏRTLƏRİ............................................................................................................ 44
27. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ...........................................................48
28. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT.....49
29. EMİSSYA XƏRCİ.........................................................................................................................49
30. PAYIN AZALMASI ......................................................................................................................50

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

**Biz, aşağıda imza edənlər,**

**1.** Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

**2.** "ALPA" ASC-nin hər birinin nominal dəyəri 2500 (iki min beş yüz) manat olan 80 (səksən) ədəd adi, adlı, sənədsiz səhmlərin Emissiya Prospektinə daxil edilmiş bütün məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"ALPA" ASC-nin Direktoru:**

İsmayılov Arif Xəlil oğlu ________________ 14.07.2025-ci il

**"ALPA" ASC-nin Baş mühasibi:**

Ağaməmmədova Səadət Sədaqət qızı ________________ 14.07.2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI «ALPA» ASC «ALPA» OJSC AZERBAIJAN REPUBLIC

# XÜLASƏ

## 1. XƏBƏRDARLIQ

**1.1.** Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

**1.2.** Səhmlərə investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxumasından sonra həyata keçirilməlidir.

**1.3.** Emissiya Prospektində olan məlumatların yalnış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya səhmlərə investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyat daşıyırlar.

## 2. EMiTENT BARƏDƏ MƏLUMAT

**2.1. Emitentin tam adı:** "ALPA" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Emitent və ya Cəmiyyət).

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Açıq Səhmdar Cəmiyyəti, Bakı şəhəri, Yasamal ray, Mirəli Seyidov, ev4, m.41

**2.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası va coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi:**
Fəaliyyət istiqamətləri və əsas bazarlar:
ALPA ASC sənaye və kommersiya təyinatlı avadanlıqların idxalı, satışı və satış sonrası texniki dəstək xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşmışdır. Şirkət fəaliyyətini əsasən enerji, neft-qaz, infrastruktur, tikinti və ağır sənaye sahələrində çalışan yerli müəssisələrlə əməkdaşlıq formasında həyata keçirir.
Təchizat və idxal zənciri:
Emitentin satdığı avadanlıqlar – kompressorlar, generatorlar, qaynaq aparatları, elektrik alətləri və pnevmatik sistemlər – əsasən Avropa (İtaliya, Almaniya, İsveçrə) və Asiya (Çin, Cənubi Koreya) ölkələrindən birbaşa istehsalçı və ya rəsmi distribyutorlar vasitəsilə idxal edilir. Hal-hazırda idxal olunan məhsulların 60%-i Avropa, 40%-i isə Asiya ölkələri mənbəlidir. Şirkət uzunmüddətli müqavilələrlə təminat zəncirinin etibarlılığını qoruyur.
Yerli və xarici bazar:
ALPA ASC hal-hazırda fəaliyyətini yalnız Azərbaycan Respublikasının daxilində həyata keçirir. İxrac fəaliyyəti yoxdur, lakin perspektivdə region ölkələrinə texniki servis ixracı və təkrar satış modelləri nəzərdən keçirilir. Şirkət idxal məhsulları əsasında daxili bazara xidmət edir.
Əsas alıcılar və bazar ehtiyacları:
Şirkətin müştəri bazasına SOCAR-a bağlı şirkətlər, xüsusi tikinti podratçıları, elektrik enerjisi istehsalı və paylanması sahəsində fəaliyyət göstərən qurumlar, eləcə də sənaye istehsalçıları daxildir. Bu sektorlardakı daimi infrastruktur ehtiyacları, dövlət investisiyaları və özəl sektorun inkişafı şirkətin məhsullarına olan tələbatı davamlı edir.

Gəlir göstəriciləri və artım dinamikası:
Aşağıda ALPA ASC-nin son üç ildə əldə etdiyi ümumi gəlirlər qeyd edilmişdir:
2022-ci il: 119,780.32 AZN
2023-cü il: 127,600.00 AZN
2024-cü il: 198,790.95 AZN
Artım dinamikası ölkədə sənayeləşmə meyillərinin güclənməsi, yeni zavod və infrastruktur layihələrinin artması ilə birbaşa bağlıdır. Eyni zamanda, dövlət və özəl sektor tərəfindən həyata keçirilən layihələr avadanlıqlara olan tələbatı sabit saxlayır.

**Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** Ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunda daha çox dəyərin yaradılması istiqamətində həyata keçirilən tədbirlər sənaye, enerji və infrastruktur sahələrində investisiya layihələrinin artmasına səbəb olmuşdur. Bu inkişaf, sənaye və infrastruktur obyektlərinin tikintisi və modernləşdirilməsi üçün tələb olunan avadanlıqlara olan ehtiyacın yüksəlməsinə, dolayısı ilə Emitentin fəaliyyət sahəsinə müsbət təsir göstərmişdir.Azərbaycan Respublikasında sənaye istehsalının və infrastruktur layihələrinin genişləndirilməsi məqsədilə qəbul edilmiş dövlət proqramları, avadanlıq idxalı və satışı sahəsində fəaliyyət göstərən şirkətlər üçün yeni imkanlar açır.
Bu istiqamətdə görülən tədbirlər Emitentin satış həcminin artmasına və yeni bazar seqmentlərinə çıxış imkanlarının genişlənməsinə şərait yaradır.Eyni zamanda, sənaye sahəsində rəqabət qabiliyyətli avadanlıqların idxalının təşviq olunması və daxili bazarda yüksək texnologiyalı avadanlıqlara olan tələbatın artması ALPA ASC-nin gələcək inkişafına əlavə dəstək verir.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

Emitent digər hüquqi şəxslərdə səhmdar və ya payçı deyildir.

**2.5. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan səhmdarının payı aşağıdakı kimidir:

| A/S/A | Adi səhmlərinin sayı | Faiz(%) | Vətəndaşlıq |
|---|---|---|---|
| İsmayılova Sima Şirin qızı | 2 | 100 | Azərbaycan |

**2.6. Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat;**

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə “bir səsli səhm – bir səsdir” prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.
Səhmdarların ümumi yığıncağında səsli səhmlərin 60 faizinin sahibləri iştirak etdikdə

ümumi yığıncaq səlahiyyətlidir.

**2.7. Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**

Cəmiyyətin Ali İdarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır.

Səhmdarların Ümumi Yığıncağı emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər.

**2.8. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:**

*Azərbaycan manatı ilə*

| | ***31.12.2024-ci il*** | ***31.12.2023-ci il*** | ***31.12.2022-ci il*** |
|---|---|---|---|
| ***Cəmi Aktivlər*** | *118 027.69* | *63 761.18* | *70 267.06* |
| ***Cəmi Öhdəliklər*** | *32 348.01* | *29 539.45* | *11 647.16* |
| ***Cəmi Kapital*** | *85 679.68* | *34 221.73* | *58 619.90* |
| ***Mənfəət/zərər*** | *80 679.68* | *34 121.73* | *58 519.90* |
| ***Pul Vəsaitləri*** | *59 285.84* | *52 483.17* | *48 826.67* |

İllər üzrə şirkətin aktivlərindəki artım əsasən sənaye və kommersiya təyinatlı avadanlıqların satışından, texniki dəstək xidmətlərindən əldə olunan gəlirlər və bölüşdürülməmiş mənfəətin artımı hesabına formalaşmışdır.
Son üç il üzrə xalis mənfəət göstəricilərində müəyyən dalğalanmalar müşahidə olunmuşdur. 2023-cü ildə maliyyə və əmək haqqı xərclərinin artması səbəbilə mənfəətdə azalma qeydə alınsa da, 2024-cü ildə fəaliyyətin genişlənməsi və gəlirlərin artması hesabına xalis mənfəət yüksəlmişdir.

**2.9. Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd:**

Seçilmiş proforma maliyyə məlumatı mövcud deyil.

**2.10. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:**

Emitentin gəlir proqnozu mövcud deyil.

**2.11. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri**

Emitentin maliyyə hesabatları üzrə audit yoxlaması qanunvericiliklə tələb olunmadığı üçün audit aparılmamışdır.

**2.12. "Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat:**

Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə emitent təsisçilər tərəfindən əlavə vəsait qoyuluşu və Banklar tərəfindən alınacaq kredit vəsaiti ilə əlavə vəsaitlarin cəlb edilməsi imkanına malikdir.

## 3. SƏHMLƏR HAQQINDA MƏLUMAT

**3.1. Səhmlərin növü və qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün ):** adi adlı sənədsiz səs hüququ verən səhm (bundan sonra: səhm və ya səhmlər) Dövlət qeydiyyat nömrəsi – AZ1001026678

**3.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı va nominal dəyəri:**

Yoxdur. Emitent tərəfindən yerləşdirilməmiş və ya geri alınmış hər hansı səhm mövcud deyil.

Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:

Emitentin törəmə müəssisəsi mövcud deyil.

**3.3. Səhmlərlə təsbit olunan hüquqlar:**

• Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək,onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

• Bu nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq

• Ümumi yığıncağın çağırılmasını tələb etmək;

• Ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;

• Ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

• Cəmiyyətin xalis mənfəətindən dividend almaq;

• Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə

imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

• Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

**3.4. Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**

Təsbit olunan məhduduiyyət mövcud deyil.

**3.5. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat vəticarətə buraxılmanın şərtləri;**

Emitent tərəfindən səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması nəzərdə tutulur. Səhmlərin yerləşdirilməsi Emissiya prospekti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilərək buraxılış dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında kütləvi təklif üsulu ilə abunə yazılışı vasitəsilə həyata keçiriləcəkdir.

Ticarət başa çatdıqdan sonra, səhmlərin müvafiq seqment üzrə ticarətə qəbul edilməsi ilə bağlı "Bakı Fond Birjası" QSC-yə müraciət ediləcək və bu proses "Bakı Fond Birjası QSC-də Qiymətli Kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi qaydası"nın II hissəsi olan, Qiymətli kağızların ticarətə qəbulu və listinqi ilə bağlı müddəaların tələblərinə əsasən həyata keçiriləcəkdir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, AzərbaycanRespublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**3.6. Emitentin dividend siyasətinin təsviri:**

"ALPA" Açıq Səhmdar Cəmiyyəti dividendlərin ödənilməsi məsələsində Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-ci maddəsinə və Cəmiyyətin nizamnaməsinin müvafiq müddəalarına əsaslanır.

Cəmiyyət dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik), illik və ya Ümumi Yığıncağın qərarı ilə müəyyən olunmuş digər dövrlərdə dividendlər ödəyə bilər. Dividend ödənişi haqqında öhdəlik, onun ödənilməsinə dair qərarın qəbul edildiyi tarixdən yaranır və bu ödəniş qərarın qəbulundan sonra 30 (otuz) təqvim günü ərzində həyata keçirilməlidir.

Son illər üzrə dividend ödənişləri:

2022, 2023 və 2024-cü illər üzrə dividend ödənişi həyata keçirilməmişdir.

## 4. RİSK FAKTORLARI

**4.1. Təklif olunan səhmlərlə əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Emitent tərəfindən təklif edilən səhmlərlə əlaqəli aşağıdakı bazar riskləri mövcuddur:
- Likvidlik riski: Emitentin səhmləri ilkin bazarda yerləşdirildikdən sonra təkrar bazarda alqı-satqı imkanları məhdud ola bilər. Bu, investorların ehtiyac duyduqları zaman səhmləri bazar qiymətinə satmaq imkanlarını azalda bilər.
- Təkrar bazarın olmaması: Hal-hazırda emitentin səhmləri üçün aktiv və likvid təkrar bazar formalaşmayıb. Bu da qiymətlərin formalaşmasında qeyri-müəyyənlik yaradır və investor üçün əlavə risk yaradır.
- Qiymətli kağızlar bazarındakı dəyişiklik riski: Maliyyə bazarlarında baş verən ümumi volatillik, ölkədəki makroiqtisadi vəziyyət və tənzimləyici siyasətlər səhmlərin bazar dəyərinə təsir edə bilər. Bu, səhmin ilkin qiyməti ilə gələcək bazar qiyməti arasında fərqlərin yaranmasına səbəb ola bilər.
- Emitentin maliyyə sabitliyi riski: Emitentin gələcək maliyyə nəticələri və gəlir dinamikası səhmlərin bazar dəyərinə birbaşa təsir edə bilər. Şirkətin gəlirlərində və mənfəətindəki potensial azalmalar səhmlərin dəyərində düşüşə səbəb ola bilər.
- Dividend siyasəti ilə bağlı risk: Emitentin hazırkı mərhələdə dividend siyasəti mövcud deyil və gələcək dövrlərdə dividend ödənişlərinə dair dəqiq bir zəmanət yoxdur. Bu, səhmdarların gələcək gəlir əldəetmə imkanlarını məhdudlaşdıra bilər.
- Valyuta riski: Şirkətin idxal yönümlü fəaliyyəti səbəbindən valyuta məzənnələrində baş verən dəyişikliklər əməliyyat xərclərinə təsir göstərərək ümumi maliyyə göstəricilərinə və nəticə etibarilə səhmlərin dəyərinə mənfi təsir edə bilər.
- İnflyasiya və faiz riski: Ümumi iqtisadi mühitdəki inflyasiya və faiz dərəcələrinin dəyişməsi də şirkətin əməliyyat xərcləri və gəlirlərinə təsir etməklə səhmlərin gəlirlik səviyyəsinə dolayısı yolla təsir edə bilər.

**4.2. Səhm emissiyası zamanı emitentin və onun fəaliyyət göstərdiyi sahəyə**

**xas olan risk faktorları**

"ALPA" ASC sənaye və kommersiya təyinatlı avadanlıqları xarici istehsalçılardan idxal etdiyi üçün beynəlxalq tədarük zəncirində baş verən gecikmələr (logistika çətinlikləri, gömrük prosedurlarındakı dəyişikliklər, xarici zavodların istehsal fasilələri və s.) məhsulun ölkəyə vaxtında çatdırılmasına və satış prosesinə mənfi təsir göstərə bilər.

Satışların dayanma riski:

Şirkətin əsas müştəri bazası sənaye, infrastruktur və tikinti sahəsində fəaliyyət göstərən təşkilatlardır. Bu sahələrdə dövlət sifarişlərinin və tenderlərinin azalması, investisiya layihələrinin təxirə salınması və ya ləğvi müştəri tələbatının azalmasına və nəticə etibarilə satış dövriyyəsinin zəifləməsinə səbəb ola bilər.

Kontragent (alıcı) riski:

Müştərilərin əsasən iri təşkilatlar olması səbəbilə onların maliyyə vəziyyətində baş verəcək zəifləmə (gəlirlərin azalması, dövlət büdcəsindən maliyyələşmədə gecikmələr və s.) şirkətə edilən ödənişlərin ləngiməsi və ya icra olunmaması riskini yaradır.

Valyuta riski:

Şirkət əsas avadanlıqları (kompressor, generator, qaynaq aparatları və s.) xarici istehsalçılardan idxal edir və ödənişlər adətən avro və ya ABŞ dolları ilə aparılır. Milli valyutanın devalvasiyası halında məhsulun maya dəyəri yüksəlir və bu, satış qiymətlərinə və mənfəətə mənfi təsir göstərə bilər.

Əməliyyat riski:

Texniki servis xidmətlərində ehtiyat hissələrinin gecikməsi, texniki heyətin çatışmazlığı və ya texniki nasazlıqlar səbəbilə servis xidmətlərində yaranan gecikmələr müştəri məmnuniyyətinin azalmasına və gələcək sifarişlərə təsir edə bilər.

Makroiqtisadi risk:

Ölkədə inflyasiya səviyyəsinin artması, istehlak kreditlərinin azalması, sənaye layihələrinin dondurulması və ya ləngiməsi bazar tələbatını aşağı sala bilər. Eyni zamanda, vergi və gömrük siyasətində baş verən dəyişikliklər idxal xərclərinə təsir edə bilər.

Təbii və texnogen risklər:

Zəlzələ, sel və digər təbii fəlakətlər, habelə texnogen hadisələr (yanğın, partlayış və s.) şirkətin ofis və anbar infrastrukturuna, eləcə də servis xidmətlərinin fasiləsizliyinə risk yarada bilər.

## 5. TƏKLİF

### 5.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:

Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən, 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslərə kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə

buraxılmış səhmlər üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azaddır.
Qeyd edirik ki, bu vergi azadlığı yalnız fiziki şəxslərə şamil olunur. Hüquqi şəxslər (şirkətlər) üçün dividendlərin vergiləndirilməsi Azərbaycan Respublikasının digər vergi qanunvericiliyi ilə tənzimlənir.
Emissiyanın həyata keçirilməsi ilə bağlı xərclər aşağıdakılardır:
Bakı Fond Birjasının səhmlərin yerləşdirilməsi üzrə komissiyası: 0.05% (ən azı 100 AZN), komissiya haqqı əqdin həcmindən asılı olaraq emitent tərəfindən ödənilir.
Milli Depozit Mərkəzində səhmlərin saxlanması üzrə xidmət haqqı: 0.02% (minimum 50 AZN).
Milli Depozit Mərkəzində mülkiyyətçilərin reyestrinin aparılması üzrə xidmət haqqı: səhmin nominal dəyərinin 0.02% (minimum 50 AZN).
Emissiya prospektinin dövlət qeydiyyatına alınması üçün dövlət rüsumu: 1200 AZN.
Səhmlərin listinqə salınması üçün illik xidmət haqqı: minimum 2000 AZN.
İnvestisiya şirkətinin xidmət haqqı: 0.05% (ən azı 100 AZN).
Yuxarıda göstərilən bütün xərclər Emitent tərəfindən ayrıca qarşılanacaq və emissiyanın nəticəsində cəlb olunacaq vəsaitlərin ümumi məbləği 200,000 (iki yüz min) AZN təşkil edəcəkdir.

**5.2. Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği:**

Bu təklifin əsas məqsədi “ALPA” ASC-nin nizamnamə kapitalının artırılması, maliyyə dayanıqlığının möhkəmləndirilməsi və fəaliyyət sahələrinin genişləndirilməsi üçün sərbəst vəsaitlərin cəlb edilməsidir. Emissiya nəticəsində cəlb olunacaq vəsaitlər şirkətin kapitallaşmasına yönəldiləcək, bu isə yeni texniki resursların alınması, xidmət keyfiyyətinin artırılması və operativ fəaliyyət imkanlarının genişlənməsi ilə nəticələnəcəkdir.

Yeni buraxılan səhmlər:

Sayı: 80 ədəd

Nominal dəyəri: 2,500 AZN

Emissiya məbləği: 200,000 AZN

Daxil olacaq vəsaitin istifadə istiqamətləri:

Avadanlıq ehtiyatlarının artırılması və yeni məhsul çeşidlərinin gətirilməsi

Texniki servis və dəstək xidmətlərinin genişləndirilməsi

Marketinq və satış şəbəkəsinin gücləndirilməsi

Ofis və infrastrukturun təkmilləşdirilməsi

Qeyd: Emissiyanın həyata keçirilməsi ilə bağlı Milli Depozit Mərkəzi, Bakı Fond Birjası və investisiya şirkətinə ödəniləcək xidmət haqları ümumi 200,000 AZN məbləğdən çıxılmır, bu xərclər emitent tərəfindən ayrıca maliyyələşdiriləcəkdir.

Beləliklə, xalis daxilolma məbləği: 200,000 AZN

**5.3. Təklifin şərtlərinin təsviri:**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, emitentin anderayteri "Assist Finance İnvestisiya Şirkəti" ASC (VÖEN: 2004868781) vasitəsilə "Bakı Fond Birjası" QSC-də həyata keçiriləcək.

Təklif olunacaq səhmlərin nominal dəyəri – 2500 (iki min beş yüz) manat

Təklif olunacaq səhmlərin sayı – 80 (səksən) ədəd

Təklif olunacaq səhmlərin ümumi məbləği – 200 000 (iki yüz min) manat

Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3(üç) iş günü müddətində davam edəcəkdir.Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir.

Səhmlərin yerləşdirilməsinə Emitent tərəfindən səhmlərin yerləşdirilməsinin başlama tarixi elanda qeyd olunan tarixdə başlanılacaq və 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcəkdir:

- ilk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- digər investorlar arasında səhmlərin yerləşdirilməsi.

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 2500 (iki min beş yüz) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir və bu pul vəsaiti klirinq təşkilatının üzvü olan Bank "ABB" ASC-də - emitentin açdığı müvəqqəti cari hesaba köçürülür. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

**5.4 Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**5.4.1 "Bakı Fond Birjası" QSC.** "Bakı Fond Birjası" QSC səhm və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Bakı Fond Birjası" QSC "ALPA" ASC-nin və digər emitentlərin emissiyaetdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSCqiymətli kağızların yerləşdirilməsi və tədavülündən habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.4.2 Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- Qiymətli kağızların saxlanması və uçotunun aparılması;
- Qiymətli kağızların mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində səhmlər üzrə səhm mülkiyyətçilərinə ödənişlərin (səhmin dəyəri, divident və s) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**"Assist Finance İnvestisiya Şirkəti" ASC**. "Assist Finance İnvestisiya Şirkəti" ASC 20.06.2023-cü il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-03 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. ALPA" ASC-ninyeni buraxılacaq səhmlərinin anderraytinqi və yerləşdirilməsi "Assist FinanceİnvestisiyaŞirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə "ALPA" ASC-dən xidmət haqqı tutacaqdır. "ALPA" ASC-nin səhmlərinin anderraytinqi və yerləşdirilməsi "Assist Finance İnvestisiya Şirkəti " ASC-nin marağı kommersiya xarakterlidir.
Emissiyada iştirak edən şəxslərin maraqlarının toqquşması halı mövcud deyildir.

**5.4.3** Bu emissiyada iştirak eden MDM, BFB, emitentin Direktoru İsmayılov Arif Xəlil oğlu, emitentin Baş mühasibi Ağaməmmədova Səadət Sədaqət qızı, kənar auditorların və anderayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

**5.5 Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti:**
Təklif edilən səhmlərin mülkiyyətçiləri mövcud deyil.

**5.6 Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə):**
Səhmlər kütləvi təklif üsulu ilə yerləşdiriləcəkdir. Mövcud yeganə səhmdar – İsmayılova Sima Şirin qızı – 100% səhmə (2 ədəd, nominal dəyəri 2,500 AZN) malikdir.
Yeni buraxılacaq 80 ədəd adi, adlı, sənədsiz səhmlər üzrə üstünlük hüququndan istifadə olunması və olunmaması hallarında pay dəyişiklikləri aşağıdakı kimidir:
✅ 1. Səhmdar üstünlük hüququndan istifadə edərsə:
Mövcud səhmlər: 2 ədəd
Yeni alınacaq səhmlər: 80 ədəd
Cəmi səhmlər: 82 ədəd
Səhmdarın payı: 82/82 = 100%
Dəyişiklik: Pay strukturunda dəyişiklik baş verməyəcək, yalnız səhmlərin sayı artacaq.
❌ 2. Səhmdar üstünlük hüququndan istifadə etməzsə və bütün 80 səhm digər investorlar tərəfindən alınarsa:
Mövcud səhmlər: 2 ədəd

Yeni səhmlər: 80 ədəd
Cəmi səhmlər: 82 ədəd
Səhmdarın yeni payı: 2/82 ≈ 2.44%
Digər investorların payı: 80/82 ≈ 97.56%
Nəticə: Mövcud səhmdarın payı 100%-dən 2.44%-ə enəcək, əgər iştirak etməzsə.

**5.7 Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Səhm alıcısının ödəməli olduğu xərcləri aşağıdakılardır :
- əqdin məbləğinin 5 (beş) basis point və ya 0,05% (min. 0,5 və maks. 500 manat) həcmində BFB komissiyası;
- investisiya şirkətinin xidmət haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- səhm alıcısının depo hesabı olmadığı təqdirdə “depo” hesab açılması üçün 5 manat (bu məbləğ investisiya şirkətinin komissiyasını təşkil edir);
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci köçürülən məbləğin 0,1%-i.

Vergilər: Ödəmə mənbəyində dividenddən vergi tutulması AR Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Həmçinin AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Kütləvi təklif edilən və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri hüquqi şəxslərə ödəniləcək isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**5.8. Səhmlərin yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi):**

"Assist Finance İnvestisiya Şirkəti” ASC anderrayter təyin edilmişdir.

Hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1025, Xocalı Pr 37, Dəmirçi Plaza;
Telefon: (994 12) 310 34 20;

E-mail:info@assistfinance.az

VOEN: 2004868781

“Assist Finance İnvestisiya Şirkəti” ASC 20.06.2023-cü il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-03 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

**5.9. Səhmlərin təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, emitentin anderayteri

“Assist Finance İnvestisiya Şirkəti” ASC (VÖEN 2004868781) vasitəsilə “Bakı Fond Birjası” QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3(üç) iş günü müddətində davam edəcəkdir.Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir.

Səhmlərin yerləşdirilməsinə Emitent tərəfindən səhmlərin yerləşdirilməsinin başlama tarixi elanda qeyd olunan tarixdə başlanılacaq və 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcəkdir:

- ilk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- digər investorlar arasında səhmlərin yerləşdirilməsi.

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 2500 (iki min beş yüz) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir və bu pul vəsaiti yerləşdirilmə başa çatdıqdan sonra və yekun hesabat Mərkəzi Bank tərəfindən təsdqi edildikdən sonra emitentin Bank “ABB” ASC-də açdığı cari hesaba köçürülür. Səhmlərin dəyəri nağdsız qaydada,milli valyutada manatla ödənilir.

**5.10. Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd.**

Abunə yazılışı dövründə anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya şərtləri ilə tanış edir, emissiya şərtlərini onlara izah edir, sifarişlərin hazırlanmasına köməklik edir və sifarişləri qəbul edilir.

## SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

5. **Emitetin auditorialri barədə məlumat**

**6.1 Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat;** Son üç il ərzində emitentin audiitorları olmayıb

**6.2 Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə məlumat.** Son üç il ərzində emitentin audiitorları olmayıb

## 6. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

**6.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

*Azərbaycan manatı ilə*

| | ***31.12.2024-ci il*** | ***31.12.2023-ci il*** | ***31.12.2022-ci il*** |
|---|---|---|---|
| ***Cəmi Aktivlər*** | *118 027.69* | *63 761.18* | *70 267.06* |
| ***Cəmi Öhdəliklər*** | *32 348.01* | *29 539.45* | *11 647.16* |
| ***Cəmi Kapital*** | *85 679.68* | *34 221.73* | *58 619.90* |
| ***Mənfəət/zərər*** | *80 679.68* | *34 121.73* | *58 519.90* |
| ***Pul Vəsaitləri*** | *59 285.84* | *52 483.17* | *48 826.67* |

## 7. EMİTENT BARƏDƏ MƏLUMAT

**7.1 Emitentin tam adı, təşkilati-hüquqi forması**

“ALPA” Açıq Səhmdar Cəmiyyəti

7.2 **Emitentin dövlət qeydiyyatının rekvizitləri:** “ALPA“ Açıq Səhmdar Cəmiyyəti 25.12.2017-ci il tarixində təsis edilmişdir.(VÖEN: 1504549901)

7.3 **Emitentin təşkilati – hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi**: “ALPA“ Məhdud Məsuliyyətli Cəmiyyət kimi 06.05.2019-cu il tarixində təsis edilmişdir.(VÖEN: 1504549901), 03.10.2024-ci il tarixində “ALPA“ Açıq Səhmdar Cəmiyyəti “ALPA” MMC -nin hüquqi varisi olmaqla bütün hüquq və vəzifələrini əldə

etmişdir.

7.4 **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı,emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları**: Hüquqi ünvan: AZ1033, Bakı şəhəri, Nərimanov ray, Tarzən Hacı Məmmədov ev8, m2: www.alpa.az; E-mail: info@alpa.az; Telefon: +99450 2100479

7.5 Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə);

2022-ci il: Əsas investisiya həyata keçirilməmişdir.

2023-cü il: Əsas investisiya həyata keçirilməmişdir.

2024-cü il: Şirkət tərəfindən 55,440 (əlli beş min dörd yüz qırx) manat dəyərində nəqliyyat vasitəsi (avtomobil) alınmışdır.

**7.6 Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici)**

Emitentin cari investisiyaları mövcud deyildir.

**7.7 İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri.**

Bu cür öhdəlik mövcud deyil.

## 8. EMİTENTİN BİZNESİNİN İCMALI

**8.1 Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarınınvə əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:**

ALPA ASC son üç maliyyə ili ərzində əsasən aşağıdakı məhsul və xidmət kateqoriyaları üzrə fəaliyyət göstərmişdir:

Kompressor sistemləri və onların hissələri

Generatorlar və enerji təminat avadanlıqları

Qaynaq və sənaye alətləri

Texniki xidmətlər, o cümlədən quraşdırma, sazlama və satış sonrası servis

Hər il məhsul çeşidlərinin genişləndirilməsi, yeni texniki heyətin işə cəlb olunması və müştəri portfelinin artması nəticəsində satışlarda və xidmət gəlirlərində müsbət dinamika müşahidə olunmuşdur. Satış sonrası texniki xidmətlərə olan tələbatın artması da gəlirlərin yüksəlməsinə töhfə vermişdir. Əsas alıcı seqmenti sənaye və tikinti sektorunda fəaliyyət göstərən müəssisələrdir.

**8.2 Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Emitent son illərdə sənaye avadanlıqları sahəsində müasir texnologiyalara əsaslanan yeni məhsul kateqoriyalarının satışına başlamışdır. Xüsusilə enerji səmərəliliyi və istismar davamlılığı baxımından üstünlüklərə malik kompressor sistemlərinin, həmçinin bu avadanlıqlara dair texniki dəstək və servis xidmətlərinin təqdim edilməsi şirkətin fəaliyyət spektrini genişləndirmişdir.

Yeni məhsulların təqdimatı ilə yanaşı, müştərilərə daha yüksək səviyyəli xidmət göstərmək məqsədilə texniki konsultasiya, sahə quraşdırma, təlim və satış sonrası

dəstək kimi xidmətlər də aktivləşdirilmişdir. Hal-hazırda bu xidmətlər ölkə daxilində bir sıra müəssisələrə tətbiq edilir və müsbət nəticələr verməkdədir. Bundan əlavə, Emitent yaxın gələcəkdə rəqəmsal servis platformasının istifadəyə verilməsini planlaşdırır. Bu platforma vasitəsilə məhsul seçimi, texniki dəstək sorğuları və xidmət sifarişləri onlayn şəkildə idarə ediləcəkdir. Layihə hal-hazırda texniki hazırlıq mərhələsindədir və növbəti maliyyə ili ərzində istifadəyə verilməsi nəzərdə tutulur.

**8.3 Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:**

Emitent fəaliyyət göstərdiyi məhsul və xidmət kateqoriyaları üzrə gəlirlərini müxtəlif illərdə artırmışdır. Əsas fəaliyyət istiqamətləri kompressor sistemləri, generatorlar, qaynaq avadanlıqları və texniki xidmətlərdir. Hər il gəlirlərdə artım müşahidə olunur ki, bu da məhsul çeşidinin genişləndirilməsi və xidmət keyfiyyətinin yüksəlməsi ilə əlaqəlidir.

Coğrafi baxımdan, gəlirlər əsasən Bakı və Abşeron bölgəsindən olmaqla, digər sənaye zonaları və regionlar üzrə də gəlir mənbələri mövcuddur. Bu bölgələrdə müştəri bazasının genişlənməsi ilə əlaqədar satışlar müsbət dinamikaya malikdir.

Rəqabət mühiti baxımından ALPA ASC yerli bazarda bir neçə əsas rəqib şirkətlə rəqabət aparır. Şirkətin əsas üstünlükləri aşağıdakılardır:

Geniş məhsul çeşidi və keyfiyyətli avadanlıqların idxalı

Satış sonrası geniş servis və texniki dəstək xidməti

Müştərilərlə uzunmüddətli əməkdaşlıq və çevik cavab vermə

Regionlarda geniş xidmət şəbəkəsi

Bu üstünlüklər şirkətin yerli bazarda mövqeyini qorumasına və inkişaf etdirməsinə şərait yaradır.

**8.4 Emitentin Biznes İcmalının 8.1, 8.2 və 8.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:**

Son dövrdə ALPA ASC tərəfindən təqdim olunan yeni məhsul və xidmətlər şirkətin əməliyyat fəaliyyətinə və bazardakı mövqeyinə əhəmiyyətli təsir göstərmişdir.

1. Yeni təqdim olunmuş məhsullar və texniki xüsusiyyətlər:

2024-cü ilin əvvəlindən etibarən şirkət kompressor sistemləri üzrə daha yüksək enerji səmərəliliyinə malik, az enerji sərfiyyatı və uzunmüddətli istismar dövrü ilə fərqlənən “oil-free” tipli kompressor avadanlıqlarını portfelinə əlavə etmişdir. Bu məhsullar artıq kommersiya istifadəsinə təqdim olunmuş və ilk müştəri satışları həyata keçirilmişdir.

Eyni zamanda avtomatik idarəetmə modulları ilə təchiz olunmuş generator sistemləri də satışa çıxarılmış, pilot mərhələdən uğurla keçmişdir. Bu sistemlər sənaye müəssisələrində məsafədən idarəetmə və enerji qənaətini təmin edir.

2. Yeni xidmətlər və inkişaf statusu:

Texniki xidmət sahəsində “preventiv texniki xidmət paketi” adlı yeni bir xidmət paketi təqdim olunmuşdur. Bu xidmət çərçivəsində müştərilərə aylıq baxışlar, ehtiyat hissələrinin əvvəlcədən planlaşdırılması və texniki nasazlıqların öncədən

qarşısının alınması xidmətləri göstərilir. Bu xidmət hazırda kommersiya mərhələsindədir və bir neçə sənaye müəssisəsi ilə müqavilə imzalanmışdır.

3. Təsir edən amillər və nəticələr:

Bu yeni məhsul və xidmətlərin bazara çıxarılması satış həcmlərində artıma, mövcud müştəri portfelinin genişlənməsinə və ümumi gəlirin yüksəlməsinə səbəb olmuşdur. Xüsusilə enerji səmərəliliyinə və texniki dəstəyə yönəlmiş həllər sənaye müəssisələrinin diqqətini cəlb etmiş, şirkətin rəqabət üstünlüyünü artırmışdır.

Bununla yanaşı, texniki heyətin təlimlərə cəlb olunması və yeni texnologiyaların tətbiqi şirkətin daxili resurslarının inkişafına da müsbət təsir göstərmişdir.

**8.5 Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:**

Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı mövcud deyil.

**8.6 Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:**

Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 9. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**9.1 Emitentin digər hüquqi şəxlərdə mövqeyinin qısa təsviri:**

Emitent digər hüquqi şəxslərdə səhmdar və ya payçı deyildir.

**9.2 Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer:**

Emitentin digər müəssisələrdə iştirak payı və törəmə müəssisəsi yoxdur.

## 10. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ

**10.1 Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri:**

| N | Mövcud olan əsas vəsaitlər | Balans dəyəri |
|---|---|---|
| 1 | Binalar, tikililər, qurğular | 0 azn |
| 2 | Maşın və avadanlıqlar | 0 azn |
| 3 | Kompüter və rabitə avadanlıqları | 0 azn |
| 4 | Digər əsas vəsaitlər | 1540 azn |
| 5 | Nəqliyyat vasitələri | 54 522.40 azn |
| | **Cəmi məbləği** | **56 062.40 azn** |

**10 .2 Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin**

**fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik ) bağlı olan amillərin təsviri:**
Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə bağlı olan amillər,yəni insan fəaliyyətindən aslı olmayan təbii hadisələr (təbii fəlakət,zəlzələ,daşqın tufan və s.) və ya texnogen hadisələrin baş verməsindən Emitentin əsas vəsaitləri (nəqliyyat vasitələri və digər əsas vəsaitləri) sığortalanır.

## 11. Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı

### 11.1 Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri:

**Azərbaycan manatı ilə**

**Mənfəət və Zərər Hesabatı (audit olunmamış)**

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|
| Gəlirlər | 20 | 198 790.95 | 127 600.00 | 119 780.32 |
| Maya dəyəri xərcləri | 21 | (87 436.36) | (72 226.70) | (18 703.90) |
| **Ümumi mənfəət** | | **111 354.59** | **55 373.30** | **101 076.42** |
| İnzibati və ümumi xərclər | 22 | (10 446.66) | (12 721.14) | (27 926.55) |
| **Əməliyyat gəliri** | | **100 907.93** | **42 652.16** | **73 149.87** |
| Məzənnə fərqindən xalis gəlir(zərər) | 23 | (58.33) | (0) | (0) |
| Maliyyə xərcləri | 23 | (0) | (0) | - |
| **Vergidən əvvəlki mənfəət** | | **100 849.60** | **42 652.16** | **73 149.87** |
| Mənfəət vergi xərci | 24 | (20169.92) | (8530.43) | (14 629.97) |
| **Xalis mənfəət** | | **80 679.68** | **34 121.73** | **58 519.90** |
| Digər məcmu gəlir(zərər) | 24 | (0) | (0) | (0) |
| **İl üzrə cəmi məcmu gəlir** | | **80 679.68** | **34 121.73** | **58 519.90** |

**11.2 Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmindəyişikliklər və onlar barədə məlumat:**

Emitentin maliyyə vəziyyətində dəyişiklik baş verməmişdir.

**11.3 Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:**

Emitentin əməliyyat gəlirləri bir sıra daxili və xarici amillərin təsiri altındadır. Bu faktorlar həm qısamüddətli, həm də uzunmüddətli dövrdə şirkətin gəlirlərində dəyişikliklərə səbəb ola bilər.

1. Xarici amillər:

Bazar tələbi və sektor üzrə investisiya axınları:

Sənaye və tikinti sahələrinə yönəlmiş dövlət və özəl investisiyaların artması, yeni layihələrin icrası avadanlıqlara olan tələbatı artırır və bu, birbaşa olaraq Emitentin satışlarına və gəlirlərinə müsbət təsir edir.

Makroiqtisadi sabitlik və ÜDM-in artım tempi:

Ölkə iqtisadiyyatında müşahidə olunan canlanma, xüsusilə real sektorun aktivliyi, Emitentin məhsullarına olan ehtiyacın artmasına şərait yaradır. Bu da əməliyyat gəlirlərinə müsbət təsir göstərir.

Rəqabət mühiti və qiymət dəyişiklikləri:

Bazar iştirakçılarının sayının artması bəzi məhsul seqmentlərində qiymət rəqabətini artırır. Bu isə marjanın qorunmasını çətinləşdirə bilər. Emitent xidmət keyfiyyəti və texniki dəstək sahəsində fərqlənməklə bu riski minimuma endirir.

Xammal və idxal olunan məhsulların qiymətləri:

Kompressor və digər texniki avadanlıqların idxal qiymətlərində baş verən dəyişikliklər (məsələn, metal və texniki komponentlərin bahalaşması) əməliyyat xərclərinə və nəticə etibarilə gəlirlərə təsir edə bilər.

Tənzimləyici mühit:

Gömrük rüsumlarında və idxal qaydalarında edilən dəyişikliklər, yeni sertifikat və uyğunluq tələbləri əməliyyat prosesinə təsir edə bilər.

2. Daxili amillər:

İdarəetmə və daxili proseslərin optimallaşdırılması:

Təchizat zəncirinin effektiv idarə olunması, ehtiyatların düzgün planlaşdırılması və satış sonrası xidmətlərin optimallaşdırılması şirkətin gəlirliliyinə müsbət təsir edir.

Müştəri portfelinin genişlənməsi:

Podrat əsasında əməkdaşlıq edilən şirkətlərin maliyyə dayanıqlılığının artması və yeni layihələrinin başlaması əməliyyat gəlirlərində artımı stimullaşdırmışdır.

Texnoloji yeniliklər və məhsul portfelinin təkmilləşdirilməsi:

Daha səmərəli və müasir texnologiyaların bazara çıxması nəticəsində məhsul çeşidinin yenilənməsi yeni gəlir imkanları yaradıb.

Ümumi qiymətləndirmə:

**11.4Cari dövrdə Emitentin gəlirləri əsasən sənaye sahəsində artan tələbat, müştəri yönümlü xidmət yanaşması və daxili idarəetmənin səmərəliliyi sayəsində müsbət dinamikada inkişaf edir. Xarici təsirlərə qarşı risklərin idarə olunması və təchizat kanallarının diversifikasiyası ilə gəlirlərin sabitliyi qorunur. Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri**:

2022-ci ildə xalis satışlar 110 322.00 AZN olmuşdur.

2023-ci ildə xalis satışlar artaraq 117,600.00 AZN təşkil etmişdir. Bu artım əsasən şirkətin məhsul və xidmət portfelini genişləndirməsi və satış kanallarının effektivləşdirilməsi ilə bağlı olmuşdur.

2024-cü ildə isə satışlar bir qədər də artaraq 198,000.00 AZN səviyyəsinə çatmışdır. Bu dövrdə artım daha çox davamlı müştəri bazasının formalaşması və bazar payının artırılması ilə əlaqədardır.

Ümumilikdə, satışlarda müşahidə olunan artım tendensiyası şirkətin fəaliyyət sahəsindəki stabillik, effektiv idarəetmə və bazar şəraitinə uyğun çevik strategiyalar qəbul etməsi ilə izah olunur.

**11.5 İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarınatəsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədəməlumat:**

Emitentin fəaliyyət göstərdiyi sektor – sənaye və kommersiya təyinatlı avadanlıqların idxalı, satışı və texniki dəstəyi – bir sıra iqtisadi və institusional amillərin təsirinə məruz qalır. Bu faktorların bəziləri birbaşa, bəziləri isə dolayı yolla əməliyyat gəlirləri, xərclər və bazar mövqeyi üzərində əhəmiyyətli rol oynayır.

1. İqtisadi amillər:

Son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafına yönəlmiş iqtisadi islahatlar və sənayeləşmə siyasəti sənaye avadanlıqlarına olan tələbatı artırmışdır.

Ümumi Daxili Məhsulun (ÜDM) real artım tempi və sənaye istehsalındakı müsbət dinamika, avadanlıq təminatı sahəsində fəaliyyət göstərən şirkətlər, o cümlədən ALPA ASC üçün əlverişli biznes mühiti yaratmışdır.

Tikinti və infrastruktur sahələrinə ayrılan dövlət sifarişlərinin artması yeni satış imkanları formalaşdırmışdır.

2. Fiskal amillər:

Vergi siyasətində sabitlik və xüsusilə sahibkarlıq fəaliyyətinin sadələşdirilməsi, ALPA ASC-nin fəaliyyətini genişləndirməsinə və yeni partnyorlarla əməkdaşlığa şərait yaratmışdır.

Dövlətin investisiya təşviqi proqramları və texnoloji avadanlıqlar üzrə güzəştlər bazara çıxışı asanlaşdırmışdır.

Büdcə xərclərinin prioritet istiqamətlərinin sənaye və infrastruktur layihələrinə yönəlməsi şirkətin məhsul və xidmətlərinə dolayı yolla tələb yaratmışdır.

3. Monetar amillər:

Azərbaycan Respublikası Mərkəzi Bankının həyata keçirdiyi sabitləşdirici pul-kredit siyasəti inflyasiyanın nəzarət altında saxlanmasına və maliyyə bazarlarında sabitliyin təmin olunmasına səbəb olmuşdur.

Faiz dərəcələrinin stabil saxlanılması şirkətin maliyyə xərclərinin proqnozlaşdırıla bilməsinə şərait yaradır.
Valyuta məzənnəsindəki sabitlik, xüsusilə avadanlıqların idxal olunduğu ölkələrin valyutaları ilə müqayisədə manatın stabilliyi, alış qiymətlərində kəskin dəyişkənliyin qarşısını almışdır.
4. Siyasi və hüquqi amillər:
Ölkədəki ümumi siyasi sabitlik və uzunmüddətli iqtisadi strategiyalar (məsələn, "Azərbaycan 2030" inkişaf strategiyası) biznes mühitinə etimadı artırır.
İdxal və gömrük prosedurlarında baş verən sadələşdirmələr əməliyyat dövrlərinin optimallaşdırılmasına və daha operativ fəaliyyətə imkan yaratmışdır.
Ətraf mühit və texniki təhlükəsizlik sahəsində normativ sənədlərin gücləndirilməsi bəzi məhsullar üzrə uyğunluq tələblərinin artmasına səbəb olmuş, lakin bu, keyfiyyətli məhsul təklif edən Emitent üçün rəqabət üstünlüyü yaratmışdır.
Nəticə olaraq:
Yuxarıda qeyd edilən iqtisadi, fiskal, monetar və siyasi amillər Emitentin əməliyyatlarına ümumilikdə müsbət təsir göstərmişdir. Xüsusilə sabit makroiqtisadi mühit, infrastruktur layihələrinin artması, gömrük siyasətindəki sadələşmələr və daxili bazardakı texniki avadanlıqlara olan tələbat əməliyyat gəlirlərinin artmasına şərait yaratmışdır

## 12. EMİTENTİN KAPİTAL RESURSLARI

**12.1 Emitentin kapital qoyuluşları (qısa va uzun müddətli):**

Emitent tərəfindən qoyulmuş mövcud nizamnamə kapitalı 5,000 (beş min) AZN təşkil edir. Bu emissiya nəticəsində nizamnamə kapitalının 200,000 AZN artırılması planlaşdırılır və nəticədə cəmi nizamnamə kapitalı 205,000 (iki yüz beş min) AZN təşkil edəcəkdir. mitent tərəfindən qoyulmuş əsas kapital 5,000 (beş min) AZN təşkil edir

**12.2 Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri:**

2024-cü ilin əvvəlinə emitentin pul vəsaitlərinin qalığı 52,483.17 AZN təşkil etmişdir. Hesabat dövrü ərzində ümumilikdə 348,515.00 AZN məbləğində pul vəsaiti daxil olmuş, 341,712.33 AZN məbləğində vəsait xərclənmişdir. Beləliklə, dövrün sonunda pul qalığı 59,285.84 AZN təşkil etmişdir.

Pul vəsaitlərinin əsas daxilolma mənbələri:

Alıcılardan məhsul və xidmətlərə görə daxil olmuş vəsaitlər

Əvvəlki dövrlərə aid debitor borcların ödənilməsi

Digər əməliyyat vəsaitləri

Pul vəsaitlərinin əsas istifadə istiqamətləri:

Tədarükçülərə və xidmət təminatçılarına ödənişlər

Əmək haqqı və ona bağlı sosial ödənişlər

Vergi və digər dövlət öhdəliklərinin yerinə yetirilməsi

Əsas vəsaitlərin, o cümlədən 2024-cü ildə alınmış nəqliyyat vasitəsinin (55,440 AZN) alınması ilə bağlı ödənişlər

12.3 “**Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat:** Hal-hazırda emitentin borclanma ehtiyacları mövcud deyil. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tutulan bütün vəsaitlərdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər.

**12.4 Emitentin əməliyyatlarına birbaşa va ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat:**

Belə bir məhdudiyyət müəyyən edilməmişdir.

**12.5 Bu Emissiya Prospektinin 7.7-ci və 10.1-ci bəndində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat:**

Bu Emissiya Prospektinin 12.5-ci bəndində qeyd olunmuş öhdəliyi yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbəyi qismində emitentin aktivləri və fəaliyyəti nəticəsində əldə olunan bütün gəlirlər çıxış edir.

## 13. Tədqiqatlar, lisenziyalar və patentlər

**13.1 Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat.**

Emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları mövcud deyil.

## 14. Tendensiyalar barədə məlumat

**14.1 Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar;**

Cari maliyyə ilinin əvvəlindən etibarən ölkə daxilində həyata keçirilən sənayeləşmə və infrastruktur yönümlü layihələrin artması sənaye və tikinti sektorlarında fəaliyyət göstərən müəssisələrin avadanlıq təminatına olan tələbatını artırmışdır. Bu da öz növbəsində sənaye təyinatlı avadanlıqların satışında artıma səbəb olmuşdur.

Əsas müşahidə olunan tendensiyalar aşağıdakılardır:

Satış həcmi: 2024-cü ilin ilk aylarından etibarən satış həcmlərində əvvəlki illərlə müqayisədə artım müşahidə olunmuşdur. Xüsusilə kompressor sistemləri və generator avadanlıqlarına tələbat yüksəlmişdir.

İdxal və mal-material ehtiyatları: İdxal proseslərində stabillik qorunur, lakin bəzi avadanlıqlar üzrə tədarük müddətlərinin uzanması səbəbindən ehtiyatların daha düzgün planlaşdırılması həyata keçirilmişdir. Stok səviyyəsinin optimallaşdırılması üçün qabaqlayıcı tədbirlər görülmüşdür.

Xərclər: Xaricdən idxal olunan malların daşınma və logistika xərclərində qismən artım olsa da, satış qiymətlərində bu artım balanslaşdırılmış şəkildə əks olunmuşdur. Əmək haqqı və texniki xidmətlər üzrə daxili xərclərdə isə ciddi dəyişiklik müşahidə olunmamışdır.

Satış qiymətləri: Əsas məhsullar üzrə satış qiymətləri bazardakı ümumi inflyasiya səviyyəsinə uyğun olaraq 5–8% aralığında artırılmışdır. Bu artım bazar tərəfindən qəbul olunmuş və satışlara mənfi təsir etməmişdir.

Ümumi tendensiya: Ölkə üzrə sənaye sektoruna investisiyaların artması, neft-qaz və enerji sahəsində aktivliyin yüksəlməsi, tikinti sektorunda dövlət və özəl sifarişlərin çoxalması emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə müsbət dinamikanın yaranmasına şərait yaratmışdır.

**14.2 Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat.**

Bazar tendensiyaları və rəqabət mühiti:

2024-cü ilin ikinci yarısından etibarən ölkədə sənaye və infrastruktur layihələrinin sayında artım müşahidə olunur. Bu, sənaye və kommersiya təyinatlı avadanlıqlara olan tələbatı artırmış və emitentin fəaliyyət sahəsinə müsbət təsir göstərmişdir. Bazarda kompressor və generator sistemləri üzrə rəqabət nisbətən artmaqda davam etsə də, ALPA ASC texniki dəstək və məhsul keyfiyyəti sahəsində üstünlükləri ilə öz mövqeyini qoruyur.

Tənzimləyici dəyişikliklər:

Hazırda emitentin fəaliyyət sahəsinə bilavasitə təsir edən mühüm tənzimləyici dəyişiklik yoxdur. Bununla belə, idxal prosedurlarında mümkün gömrük və vergi siyasəti dəyişiklikləri yaxın gələcəkdə əməliyyat xərclərinə təsir göstərə bilər. Şirkət bu dəyişiklikləri daim izləyir və uyğunlaşma tədbirləri planlaşdırır.

Texnoloji yeniliklər:

Sənaye avadanlıqları sahəsində texnoloji inkişaflar — xüsusilə enerji səmərəliliyi və avtomatlaşdırma texnologiyaları — istehlakçıların seçim meyarlarını dəyişir. Emitent bu tendensiyalara cavab vermək üçün məhsul portfelini təkmilləşdirir və beynəlxalq təchizatçılarla texnoloji cəhətdən yenilənmiş məhsulların idxalını artırır.

Öhdəliklər və maliyyə sabitliyi:

Emitentin hazırda öhdəlikləri əsasən əməliyyat fəaliyyəti çərçivəsində yaranan qısamüddətli öhdəliklərdir və onların icrası vaxtında və müntəzəm şəkildə həyata keçirilir. Uzunmüddətli borc öhdəlikləri mövcud deyil. Maliyyə sabitliyi qorunur və cari il üzrə likvidlik səviyyəsi qənaətbəxşdir.

Qeyri-müəyyənliklər və risklər:

Cari maliyyə ili üzrə bazarda ciddi qeyri-müəyyənlik müşahidə olunmur. Lakin xarici bazarlarda (xüsusilə idxal etdiyimiz ölkələrdə) logistika və tədarük zəncirində baş verə biləcək gecikmələr və ya geosiyasi faktorlar məhsul dəyərinə və çatdırılma müddətlərinə təsir göstərə bilər. Şirkət bu riskləri alternativ təchizatçılarla işləməklə idarə edir.mitent maliyyə ilində mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaqməqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi Emitentin səmərəli fəaliyyətinə şərait yaradır və hal hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlarvaxtında icra edilməkdədir.

**15. Gəlir proqnozu:**

Mövcud deyil

**16. Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları**

Şirkətin idarəetmə orqanı Müşahidə Şurası və İcra Orqanıdır.

Müşahidə Şurası:
Hazırda "ALPA" ASC-nin Müşahidə Şurası yaradılmayıb. İdarəetmə funksiyası bilavasitə icra orqanı tərəfindən həyata keçirilir.
İcra Orqanı:
İcra orqanı kimi şirkətin cari fəaliyyətinə birbaşa rəhbərlik edən və onu təmsil edən Baş direktor fəaliyyət göstərir.
Baş direktor: İsmayılov Arif Xəlil oğlu
Nəzarət orqanları:
Şirkətin daxili audit və nəzarət funksiyaları direktorun tabeliyində olan maliyyə və mühasibatlıq struktur bölməsi tərəfindən həyata keçirilir

**16.1 Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı:**
Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı illik və növbədənkənar keçirilir. Emitentin səhmdarlarının sayı ikidir.

| № | A/S/A | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | ixtisas | Emitentin nizamnama kapitalında pay, (faizla) va ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| 2 | İsmayılova Sima | Səhmdar | Səhmdar | Ali - | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Şirin qızı | | | Azərbaycan Tibb Universiteti | Pediatr | 100% |

Direktor barədə məlumat:

| № | A/S/A | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | ixtisas | Emitentin nizamnama kapitalında pay, (faizla)va ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| 1 | İsmayılov Arif Xəlil oğlu | Direktor | Baş direktor | Ali Bakı Dövlət Universiteti | İqtisadi nəzəriyyə | Mövcud deyil |

**16.2 Bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat;**

İsmayılov Arif Xəlil oğlu təsisçinin – İsmayılova Sima Şirin qızının həyat yoldaşıdır.

**16.3 Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub- olmaması haqqında məlumat;**

Direktorun məhkumluğu olmamışdır.

**16.4 Şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesinin başlanması haqqında məlumat**;

Mövcud deyil

**16.5 Şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat;**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsindənəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda,səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

**17. Emitentin idarəedilməsində iştirak edən şəxslərin mükafatlandırılması, imtiyazları və digər kompensasiyaları**

**17.1 Emissiya Prospektinin yuxardakı bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunuilə**

**əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər:**

Cari maliyyə ili ərzində "ALPA" ASC-nin idarəetmə və nəzarət orqanlarının üzvlərinə maliyyə ilinin yekunu ilə əlaqədar hər hansı mükafat, şərti və ya təxirə salınmış kompensasiya ödənilməmişdir.

**17.2** Emitent və onun törəmə müəssisələri tərəfindən həmin şəxslərə əlavə xidmətlər (nəqliyyat, telefon, sosial paket və s.) göstərilməmişdir.**Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər:**

Emitent tərəfindən kompensasiya və ya yardım vermək məqsədilə ayırdığı məbləğ mövcud deyil.

## 18. İcra orqanının işgüzar praktikası

**18.1 Maliyyə ilinin nəticələrinə əsasən Emissiya Prospektinin 16.1-ci bəndində göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar:**

Maliyyə ilinin yekunlarına əsasən, Emissiya Prospektinin 16.1-ci bəndində göstərilən şəxslər haqqında məlumatlar aşağıdakı kimidir:

Səhmdar: Səlahiyyət müddəti müddətsizdir və hazırda fəaliyyətdədir.

Direktor: İsmayılov Arif Xəlil oğlu, səlahiyyət müddəti müddətsizdir və hazırda idarəetmə funksiyalarını icra edir.

Əlavə olaraq bildiririk ki, idarəetmə orqanlarının fəaliyyəti ilə bağlı digər müvafiq məlumatlar prospektin müvafiq bölmələrində təqdim edilmişdir.

**18.2 Səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat;**

Emitentin törəmə müəssisələri mövcud deyil.

18.3 **Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı;**

Audit Komitəsi mövcud deyildir.

**18.4 Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat.**

Emitentin idarəetmə forması Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmişdir.

Emitentin ali idarəetmə orqanı səhmdarların ümumi yığıncağıdır. Hal-hazırda Cəmiyyətin yeganə səhmdarı İsmayılova Sima Şirin qızıdır və müvafiq qərarlar onun tərəfindən qəbul edilir. Ümumi yığıncaq qərarları protokolla rəsmiləşdirilir və katib tərəfindən sənədləşdirilir. Cəmiyyətin ayrıca idarə heyəti mövcud deyil; gündəlik fəaliyyətə icra orqanı – direktor rəhbərlik edir.

Emitent öz fəaliyyətində korporativ idarəetmənin əsas prinsiplərinə – şəffaflıq, hesabatlılıq və maraqlı tərəflərin hüquqlarının qorunmasına riayət edir. Maliyyə hesabatları qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim olunur və müvafiq açıqlamalar verilir.

Hazırda emitent ölkədə tətbiq olunan korporativ idarəetmə standartlarına böyük ölçüdə

uyğun fəaliyyət göstərməkdədir. Gələcəkdə idarəetmə strukturunun təkmilləşdirilməsi, o cümlədən idarə heyətinin formalaşdırılması və xüsusi nəzarət komitələrinin yaradılması istiqamətində addımlar atılması planlaşdırılır.

## 19 Emitentin işçi heyəti

**19.1 Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı;**

Emitentin müvəqqəti işçiləri yoxdur.

Daimi işçilər barədə məlumat:

2022-ci ilin sonuna- 5 əməkdaş;

2023-ci ilin sonuna- 5 əməkdaş;

2024-cü ilin sonuna- 5 əməkdaş.

**19.2 İşçilərin emitentin nizamnamə kapitalında iştirakı**

İşçilərin emitentin nizamnamə kapitalında iştirakı mövcud deyil.

**19.3 Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat**

Emintentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramları mövcud deyil.

## 20 Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olansəhmdarlar

| № | A/S/A | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | ixtisas | Emitentin nizamnama kapitalındapay, (faizla)va ya emitentin səhmlərinəolan opsionları |
|---|---|---|---|---|---|---|
| 2 | İsmayılova Sima Şirin qızı | Səhmdar | Səhmdar | Ali - Azərbaycan Tibb Universiteti | Pediatr | 100% |

**20.1 Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları haqqında məlumat;**

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə "bir səsli səhm — bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavəvə dəyişikliklərin edilməsi haqqında qərarlar səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.Səhmdarların ümumi yığıncağında səsli səhmlərin ən azı 80 faizinin sahibləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

**20.2Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin**

**xüsusiyyətləri və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün tədbirlərin təsviri;**

"ALPA" ASC-də mühüm iştirak payına malik olan yeganə səhmdar İsmayılova Sima Şirin qızıdır. O, 100% paya malikdir və Cəmiyyətin ümumi yığıncağı vasitəsilə emitentin idarə olunmasında əsas qərarverici subyektdir.

Səhmdarın idarəetmə fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və emitentin nizamnaməsinə uyğun şəkildə həyata keçirilir. Qərarların rəsmiləşdirilməsi protokollarla aparılır, şəffaflıq və hüquqi uyğunluq prinsiplərinə əməl olunur.

Emitent tərəfindən aşağıdakı tədbirlər vasitəsilə səhmdar nəzarətinin şəffaf və ədalətli aparılması təmin edilir:

Bütün qərarlar sənədləşdirilir və qanuni əsaslarla qəbul olunur;

Maliyyə hesabatları qanunvericiliklə müəyyən edilmiş qaydada təqdim olunur və maliyyə intizamına ciddi riayət edilir;

Qərarvermədə maraqların toqquşmasının qarşısının alınması üçün daxili nəzarət mexanizmləri tətbiq olunur;

Əgər gələcəkdə əlavə səhmdarlar cəlb olunarsa, onların hüquqlarının bərabər qorunması üçün hüquqi və təşkilati baza mövcuddur.

Beləliklə, emitentə nəzarət edən səhmdarın fəaliyyəti şəffaf şəkildə həyata keçirilir və bu nəzarətin sui-istifadə hallarına yol verilməməsi üçün hüquqi və təşkilati tədbirlər mövcuddur..

**20.3 Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat.**

Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən hal barədə məlumat yoxdur.

## 21 Aidiyyəti şəxslərlə əməliyyatlar

**21.1 Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə aşağıdakı məlumat Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına(MHBS) uyğun olaraq tərtib edilmiş məlumat;**

Emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri mövcud deyildir .

**21.2 Məlumat MHBS uyğun olaraq tərtib edilmədiyi təqdirdə, həmin məlumat aşağıdakıları özündə əks etdirməlidir:** Məlumat mövcud deyildir.

## 22 Emitentin maliyyə məlumatları

**22.1 Emitentin başa çatmış son üç maliyyə ili üzrə maliyyə hesabatları (audit yoxlaması tələb olunmadığından təqdim edilməmişdi )**

**Azərbaycan manatı ilə**

### Mənfəət və Zərər Hesabatı

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| Gəlirlər | 20 | 198 790.95 | 127 600.00 | 119 780.32 |
| Maya dəyəri xərcləri | 21 | (87 436.36) | (72 226.70) | (18 703.90) |
| **Ümumi mənfəət** | | **111 354.59** | **55 373.30** | **101 076.42** |
| İnzibati və ümumi xərclər | 22 | (10 446.66) | (12 721.14) | (27 926.55) |
| **Əməliyyat gəliri** | | **100 907.93** | **42 652.16** | **73 149.87** |
| Məzənnə fərqindən xalis gəlir(zərər) | 23 | (58.33) | (0) | (0) |
| Maliyyə xərcləri | 23 | (0) | (0) | - |
| **Vergidən əvvəlki mənfəət** | | **100 849.60** | **42 652.16** | **73 149.87** |
| Mənfəət vergi xərci | 24 | (20169.92) | (8530.43) | (14 629.97) |
| **Xalis mənfəət** | | **80 679.68** | **34 121.73** | **58 519.90** |
| Digər məcmu gəlir(zərər) | 24 | (0) | (0) | (0) |
| **İl üzrə cəmi məcmu gəlir** | | **80 679.68** | **34 121.73** | **58 519.90** |

## BALANS HESABATI

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Torpaq, tikili və avadanlıqlar | 7 | 54 522.40 | 8194.66 | 19 553.41 |
| Digər təxirə salınmış vergi aktivləri | 13 | - | - | - |
| Uzunmüddətli verilmiş borclar | 13 | - | - | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **54 522.40** | **8194.66** | **19 553.41** |
| **Cari aktivlər** | | | | |
| Mal-Material ehtiyatları | 8 | 1540.00 | 1540.00 | 1540.00 |
| Görülmüş işlər üzrə ehtiyat | 9 | - | - | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 59 285.84 | 52 483.17 | 48 826.67 |
| Debitor borcları | 11 | 2679.45 | 1543.35 | - |
| Avans ödənişləri | 12 | - | - | - |
| Digər aktivlər | 13 | 1599.45 | | 346.98 |
| **Cəmi cari aktivlər** | | **63 505.29** | **55 566.52** | **50 366.67** |
| **CƏMİ AKTİVLƏR** | | **118 027.69** | **63 761.18** | **70 267.06** |
| **Öhdəliklər** | | | | |
| **Cari öhdəliklər** | | | | |
| Borc vəsaitləri | 15 | - | - | - |
| Kreditor borclar | 16 | 13 139.75 | 12551.30 | 8536.40 |
| Alınmış avanslar | 17 | - | - | - |
| Mənfəət vergi öhdəliyi | | - | - | - |
| Vergi öhdəlikləri | 18 | - | - | - |
| Digər öhdəliklər | 19 | 19208.26 | 16988.15 | 3110.76 |
| **Cəmi cari öhdəliklər** | | **32 348.01** | **29 539.45** | **11 647.16** |
| **Uzunmüddətli öhdəliklər** | | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 18 | - | - | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **-** | **-** | **-** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **32348.01** | **29 539.45** | **11 647.16** |
| **Kapital** | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14 | 5 000.00 | 100.00 | 100.00 |
| Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | | 80 679.68 | 34 121.73 | 58 519.90 |
| **CƏMİ KAPİTAL** | | **85679.68** | **34 221.73** | **58 619.90** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **118 027.69** | **34 221.73** | **58 619.90** |

## PUL VƏSAİTLƏRİN HƏRƏKƏTİ HESABATI

| Göstəricilərin adı | Sətrin kodu | 2024-cü il üçün | 2023-cü il üçün | 2022-cü il üçün |
|---|---|---|---|---|
| **I. Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | | |
| 1. Pul vəsaitlərin mədaxili, cəmi | **010** | **256,109.93** | **127,618.47** | **150,251.39** |
| o cümlədən: | | | | |
| malların satışı | 011 | 198,000.00 | 117,600.00 | 118,961.24 |
| xidmətlərin göstərilməsi | 012 | - | - | - |
| alınmış avanslar | 013 | - | - | - |
| dividenetlər | 014 | - | - | - |
| digər gəlirlər | 015 | 58,109.93 | 10,018.47 | 31,290.15 |
| 2. Pul vəsaitlərin xərclənməsi/çıxılması, Cəmi | **020** | **185,343.50** | **76,433.30** | **55,577.28** |
| o cümlədən: | | | | |
| mal və xidmətlərə görə təchizatçılara ödənişlər | 021 | 53,142.22 | 4,469.24 | 9,520.58 |
| verilmiş avanslar | 022 | - | - | - |
| Əmək haqqı ödənişləri | 023 | 49,492.19 | 50,191.75 | 11,844.00 |
| kreditlər üzrə faiz/mükafat ödənişləri | 024 | - | - | - |
| Korporativ gəlir vergisi | 025 | - | - | - |
| büdcəyə digər ödənişlər | 026 | - | - | - |
| diqər ödənişlər | 027 | 82,709.09 | 21,772.31 | 34,212.70 |
| 3. Pul vəsaitlərin əməliyyat fəaliyyəti dövriyyəsindən olan xalis gəlir cəmi. (sət. 010 - sət. 020) | **030** | **70,766.43** | **51,185.17** | **94,674.11** |
| **II.Pul vəsaitlərin investisiya/sərmayə fəaliyyət dövriyyəsi** | | | | |
| 1. Pul vəsaitlərin mədaxili, cəmi | **040** | **-** | **-** | **-** |
| o cümlədən: | | | | |
| əsas vəsaitlərin satışı | 041 | - | - | - |
| qeyri maddə aktivlərin satışı | 042 | - | - | - |
| digər uzun müddətli aktivlərin satışı | 043 | - | - | - |
| maliyyə aktivlərinin satışı | 044 | - | - | - |
| digər şirkətlərə verilən kreditlərin ödənişi | 045 | - | - | - |
| fyuçers və forvard müqavilələri, opsion və svoplar | 046 | - | - | - |
| digər mədaxillər | 047 | - | - | - |
| 2. Pul vəsaitlərin xərclənməsi/çıxılması, Cəmi | **050** | **-** | **-** | **-** |
| o cümlədən: | | | | |
| əsas vəsaitlərin alınması | 051 | - | - | - |
| qeyri maddi aktivlərin alınması | 052 | - | - | - |
| digər uzun müddətli aktivlərin alınması | 053 | - | - | - |
| maliyyə aktivlərinin satışı | 054 | - | - | - |
| digər şirkətlərə kreditlərin verilməsi | 055 | - | - | - |
| fyuçers və forvard müqavilələri, opsion və svoplar | 056 | - | - | - |
| diqər ödənişlər | 057 | - | - | - |
| 3. Pul vəsaitlərin investisiya/sərmayə fəaliyyət dövriyyəsindən olan xalis gəlir cəmi. (sət. 040 - sət. 050) | **060** | **-** | **-** | **-** |

| Göstəricilərin adı | Sətrin kodu | 2024-cü il üçün | 2023-cü il üçün | 2022-cü il üçün |
|---|---|---|---|---|
| **III. Pul vəsaitlərin maliyyə fəaliyyət dövriyyəsi** | | | | |
| 1. Pul vəsaitlərin mədaxili, cəmi | **070** | **(63 011,93)** | **(47 000,00)** | **(66 634,48)** |
| o cümlədən: | | | | |
| səhmlərin və digər qiymətli kağızların emissiyası | 071 | - | - | - |
| kreditlərin alınması | 072 | - | - | - |
| Maliyyə lizinqi üzrə faizlərin alınması | 073 | - | - | - |
| diqər ödənişlər | 074 | (63 011,93) | (47 000,00) | (66 634,48) |
| 2. Pul vəsaitlərin xərclənməsi/çıxılması, Cəmi | **080** | **951.83** | **528.67** | **382.28** |
| o cümlədən: | | | | |
| kreditlərin ödənilməsi | 081 | - | - | - |
| şəxsi səhmlərin alınması | 082 | - | - | - |
| dividendlərin ödənilməsi | 083 | - | - | - |
| digər | 084 | 951.83 | 528.67 | 382.28 |
| 3. Pul vəsaitlərin investisiya/sərmayə fəaliyyət dövriyyəsindən olan xalis gəlir cəmi.(sət. 070 - sət. 080) | **090** | **(63 963,76)** | **(47 528,67)** | **(67 016,76)** |
| **Cəm: Pul vəsaitlərinin artması +/- azalması (sət. 030 +/- sət. 060 +/- sət. 090)** | | **6,802.67** | **3,656.50** | **27,657.35** |

| Göstəricilərin adı | Sətrin kodu | 2024-cü il üçün | 2023-cü il üçün | 2022-cü il üçün |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri dövrün əvvəlində | | 52,483.17 | 48,826.67 | 21,169.32 |
| Pul vəsaitləri və onların ekvivalentləri dövrün sonunda | | 59,285.84 | 52,483.17 | 48,826.67 |

## Kapital Hərəkəti Hesabatı

| | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital: |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə** | **100** | **69 492.38** | **69 592.38** |
| İl üzrə cəmi məcmu gəlir | - | 34 121.73 | |
| Elan edilmiş dividend | - | (40 602.18) | |
| **31 dekabr 2023-ci il tarixinə** | **100** | **63 011.93** | **63 111.93** |
| İl üzrə cəmi məcmu gəlir | - | 80 679.68 | |
| Kapitalda atma (azalma) | | | |
| Elan edilmiş dividend | - | (63 011.93) | |
| **31 dekabr 2024-cü il tarixinə** | **5 000** | **80 679.68** | **85 679.68** |

**22.2 Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatəedən audit edilmiş maliyyə hesabatları;**

Emitent 1 ildən artıq müddətə fəaliyyət göstərir.

**22.3 Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda);**

Emitentin törmə müəssisələri olmadığı üçün konsolidasiya olunmuş maliyyə hesabatı mövcud deyil.

22.3.1 **Aralıq və digər maliyyə məlumatları;**

Aralıq maliyyə məlumatları mövcud deyildir. Digər maliyyə məlumatları hazırki Emissiya Prospektinin 22.1-ci bəndində açıqlanır.

**22.4 Emitent son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir;**

Emitent tərəfindən 2024-cü ilin I, II və III rübləri üzrə maliyyə hesabatları tərtib edilmiş, lakin səhm buraxılışı ilə bağlı qanunvericilikdə audit yoxlamasının keçirilməsi məcburi olmadığından, bu hesabatlar auditdən keçməmişdir və audit rəyi mövcud deyil.

Həmin rüblük maliyyə hesabatları əvvəlki ilin müvafiq dövrü ilə müqayisəli şəkildə emissiya prospektinə əlavə edilmişdir..

**22.5 Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir**

**22.6** Emissiya prospektinə 2024-cü ilin yarımillik aralıq maliyyə hesabatı əlavə edilməmişdir. Bunun səbəbi odur ki, yarımillik hesabat hələ tərtib edilməmişdir və Mikro sahibkarlıq meyarlarına uyğun olaraq audit tələbi mövcud olmadığından həmin hesabat üzrə audit yoxlaması aparılmamışdır. Hesabat tərtib olunduqdan sonra qanunvericiliyin tələblərinə uyğun təqdim ediləcəkdir.

**22.7 Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat;**

Son üç maliyyə ili üzrə emitentin səhmlərinin sayı, hər səhmə düşən dividend məbləği və ödənilmiş ümumi dividendlər aşağıdakı kimidir:

2022-ci maliyyə ili:

Səhmlərin sayı – 1 ədəd

Dividend ödənilməmişdir.

2023-cü maliyyə ili:

Səhmlərin sayı – 2 ədəd

Hər səhmə düşən dividend – 20,301.09 AZN

Ödənilmiş ümumi dividend – 0 AZN

2024-cü maliyyə ili:

Səhmlərin sayı – 2 ədəd

Hər səhmə düşən dividend – 31,505.97 AZN

Ödənilmiş ümumi dividend – 0 AZN.

**22.8 Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzindəhüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla);**

Bu növ hüquqi proseslər olmamışdır.

**22.9 Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat.**

Maliyyə hesabatları hələ heç bir rəsmi platformada dərc olunmamışdır.

## 23 Emitent haqqında əlavə məlumatlar

**23.1 Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu;**

| Rezidentlər | |
|---|---|
| Fiziki Şəxslər: | Səhmdarlar Nizamnama kapitalmda payı (%) |
| **İsmayılova Sima Şirin qızı** | **100%** |

Emitentin nizamnamə kapitalı 5,000 (beş min) manatdır və bu kapital 2 (iki) ədəd, hər biri 2,500 (iki min beş yüz) manat nominal dəyərində adi, sənədsiz, adlı səhmdən ibarətdir. Dövlət qeydiyyat nömrəsi – AZ1001026678

Emitentin səhmdarları yeni səhmlərin buraxılması zamanı üstünlük hüququna malikdirlər.

Eyni növdə olan səhmlər üzrə verilən hüquqlar bərabərdir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, səhmdarlar aşağıdakı hüquqlara malikdirlər:

Cəmiyyətin fəaliyyəti ilə bağlı məlumat almaq və illik maliyyə hesabatları ilə tanış olmaq;

Ümumi yığıncağın çağrılmasını və gündəliyində dəyişiklik edilməsini tələb etmək;

Ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında iştirak etmək və protokolun surətini tələb etmək;

Cəmiyyətin fəaliyyətinin auditor və ya təftiş komissiyası tərəfindən yoxlanılmasını tələb etmək;

Cəmiyyətin xalis mənfəətindən dividend almaq;

Səhmlərin satışı prosesində iştirak etmək və kütləvi səhmlərə münasibətdə üstünlük hüququna malik olmaq;

Cəmiyyətin ləğvi zamanı yerdə qalan əmlakın müəyyən hissəsini almaq;

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**23.2 Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri;**

Emitentin emissiya hesabında geri satın alınmış və uçotu aparılan səhmlər mövcud deyil.

**23.3 Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı vənominal dəyəri;**

Emitentin törəmə müəssisələri mövcud deyil.

**23.4 Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin**

**olunmuş qiymətli kağızları barədə məlumat;**
Emitentin konvertasiya edilə bilən qiymətli kağızları mövcud deyil.

**23.5 Emitentin səhmlərinə olan opsionlar barədə məlumat;**
Emitentin səhmlərinə opsion tətbiq edilmir.

**23.6 Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədəməlumat**
Son üç il ərzində Cəmiyyətin nizamnamə kapitalında aşağıdakı dəyişikliklər baş vermişdir:
2025-ci il tarixində nizamnamə kapitalı 100 (yüz) manatdan 5,000 (beş min) manata artırılmışdır.
Kapital artımı əlavə ödənişlər şəklində həyata keçirilmiş və müvafiq qanunvericiliyə uyğun olaraq təsdiqlənmişdir.
Kapital artımı nəticəsində Cəmiyyətin səhmlərinin sayı və nominal dəyəri müvafiq olaraq yenilənmişdir.
Əlavə olaraq, əvvəlki illərdə (2021 və 2022-ci illərdə) nizamnamə kapitalında heç bir dəyişiklik qeydə alınmamışdır..

**23.7 Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**23.7.1 Fəaliyyət və məqsədlərin təsviri;**

“ALPA” ASC-nin əsas fəaliyyəti sənaye və kommersiya təyinatlı avadanlıqların idxalı, satışı və satışdan sonrakı texniki dəstək xidmətlərinin göstərilməsidir. Şirkət müxtəlif sənaye sahələrində, xüsusilə enerji, neft-qaz, infrastruktur və tikinti sektorunda fəaliyyət göstərən təşkilatlara avadanlıq təmin edir. Avadanlıqlar əsasən kompressorlar və digər sənaye qurğularından ibarətdir.
Azərbaycan Respublikasında həyata keçirilən sənayeləşmə və infrastruktur layihələrinin artması, ölkə iqtisadiyyatında istehsal gücünün genişləndirilməsi istiqamətində atılan addımlar Emitentin fəaliyyət sahəsinə müsbət təsir göstərmişdir. Bazar tələbatının artması avadanlıq satışının həcminin yüksəlməsinə və şirkətin ümumi gəlirinin artmasına şərait yaratmışdır.
Emitent əsasən daxili bazarda fəaliyyət göstərərək sənaye və tikinti şirkətlərinə avadanlıq təminatı həyata keçirir.
Emitentin məqsədləri aşağıdakılardır:
Yüksək keyfiyyətli sənaye avadanlıqlarının idxalı və satışı ilə bazarda lider mövqeyini qorumaq;
Müştərilərə satış sonrası texniki dəstək və xidmətləri genişləndirmək;
Daxili bazarda mövcud payını artırmaqla yanaşı, yeni sənaye sahələrinə çıxışı təmin etmək;
Gəlirləri artırmaq və müəssisənin dövriyyə kapitalını gücləndirmək;
Qanunvericiliyə uyğun olaraq innovativ və səmərəli fəaliyyət prinsipləri əsasında inkişaf etmək.

23.7.2 Səhmdarların Ümumi Yığıncağı Emitentin ali idarəetmə orqanıdır.
Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

23.7.3 Cəmiyyətin nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;

23.7.4 cəmiyyətin icra orqanını təyin etmək və onların səlahiyyətlərinə vaxtındanəlavə xitam vermək;

23.7.5 cəmiyyətin idarə edilməsində iştirak etmək,onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək, bu orqanların üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

23.7.6 cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;

23.7.7 Xüsusi əhəmiyyətli əqdin bağlanması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis

aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir.

23.7.8 Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək

23.7.9 Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik və onun işlərinin aparılması təkbaşı icra orqanı olan Direktor tərəfindən həyata keçirilir.

23.7.10 Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik və onun işlərinin aparılması təkbaşına icra orqanı olan direktor tərəfindən həyata keçirilir.O,cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir və səhmdarların ümumi yığıncağına hesabat verir. Cəmiyyətinnizamnaməsi ilə cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli cəmiyyətin icra orqanının səlahiyyətinə aiddir.Səhmdarların ümumi yığıncağının qərarı ilə cəmiyyətin icra orqanlarının səlahiyyətləri müqaviləyə əsasən başqa kommersiya təşkilatına və ya fərdi sahibkara (idarəçiyə) verilə bilər.

Direktor Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir. Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini,tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir.Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir.Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərarlar qəbul edir və əmrlər verir.

**23.8 Mövcud səhmlərin hər bir növü məhdudiyyətlərin təsviri-**Emitentin mövcud səhmlərinin yalnız bir növü (adi sənədsiz adlı səhmlər) olduğundan həmin növ səhmlər üzrə məhdudiyyətlər mövcud deyildir.

**23.8.1 Səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası.**

Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağı növbəti və növbədənkənar ola bilər.

Səhmdarın növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır.

Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyətəklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləqsalınmalıdır.

Səhmdarların ümumi yığıncağında səsli səhmlərin ən azı altmış faizinin mülkiyyətçiləri iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

Səhmdarların ümumi yığıncağının çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə kütləvi informasiya vasitələri ilə elan verilməli, habelə səhmdarlarabu barədə yazılı bildiriş göndərilməlidir.

Səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

cəmiyyətin adı və olduğu yer;

səhmdarların ümumi yığıncağının keçirilmə tarixi, vaxtı və ünvanı;

səhmdarların ümumi yığıncağının gündəliyi;

səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olunmaqaydası.

Səhmdarların ümumi yığıncağının gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərarqəbul edə bilməz.

Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar on beş təqvimgünündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

Səhmdarların ümumi yığıncağının protokolu yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.

- Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.
- Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:
- üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtmı və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla, bu barədə mediada elan verməlidir;
- beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;
- otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir.

**23.9 Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat.**

Emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqaviləsi mövcud deyil.

## SƏHMLƏR BARƏDƏ MƏLUMAT

### 24 ƏSAS MƏLUMAT

**24.1 Emitentin dövriyyə kapitalı (cari aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat:**

Dövriyyə kapitalı 31.12.2024 tarixinə 185,679.68 manat təşkil edir. Bu məbləğ cari aktivlərin (118,027.69 AZN) cari öhdəliklərdən (32,348.01 AZN) çıxılması nəticəsində hesablanmışdır..

**24.2 Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat:**

Dövriyyə kapitalının emitentin cari ehtiyacların üçün kifayət etmədiyi təqdirdə emitent kredit vəsaitlərinin və.s. formada əlavə vəsaitlərin cəlb edilməsi imkanına malikdir.

**24.3 Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat:**

Mövcud deyil

**24.4 Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" QSC**. "Bakı Fond Birjası" QSC səhm və digər növ qiymətli kağızlara ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Bakı Fond Birjası" QSC "ALPA" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarət buraxılmasında marağı kommersiya xarakterlidir. Bu emissiya prospekti təsdiq olunduqdan sonra yeni buraxılacaq səhmlər mövcud səhmlərlə birlikdə müəyyən tarixdə kütləvi üsulla yerləşdiriləcəkdir. Hal-hazırda səhmlər Bakı Fond Birjasının listinqində deyil və listinq şərtlərinə cavab vermir."Bakı Fond Birjası" QSCqiymətli kağızların

yerləşdirilməsi və tədavüldən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- Səhmlərin saxlanması və uçotunun aparılması;
- Səhm mülkiyyətçilərinin reyestrinin aparılması;Emitentin ödəniş agenti qismində səhm üzrə səhm mülkiyyətçilərinə ödənişlərin (səhmin dəyəri, divident və s) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**“Assist Finance İnvestisiya Şirkəti ” ASC.** “Assist Finance İnvestisiya Şirkəti” ASC 20.06.2023-cü il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-03 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. “ALPA” ASC-ninyeni buraxılacaq səhmlərinin anderraytinqi və yerləşdirilməsi “Assist Financeİnvestisiya Şirkəti” ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə “ALPA” ASC-dən xidmət haqqı tutacaqdır. “ALPA” ASC-nin səhmlərinin anderraytinqi və yerləşdirilməsi “Assist Finance İnvestisiya Şirkəti ” ASC-nin marağı kommersiya xarakterlidir.

Emissiyada iştirak edən şəxslərin maraqlarının toqquşması halı mövcud deyildir.

24.5 **Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

Nominal dəyəri 2,500 (iki min beş yüz) manat olan 80 (səksən) ədəd adi adlı sənədsiz səhmin buraxılması və təklifi, “ALPA” ASC-nin nizamnamə kapitalının artırılması və maliyyə dayanıqlığının gücləndirilməsi məqsədi daşıyır. Buraxılışdan əldə ediləcək cəmi 200,000 (iki yüz min) manatlıq vəsait aşağıdakı istiqamətlər üzrə istifadə olunacaq:

Dövriyyə vəsaitlərinin genişləndirilməsi – yeni məhsul və avadanlıqların idxalı və satış üçün alınması məqsədilə;

Servis xidmətlərinin inkişafı – texniki xidmət və təmir xidmətlərinin genişləndirilməsi üçün avadanlıq və ehtiyat hissələrinin alınması;

İT infrastrukturunun təkmilləşdirilməsi – ERP sisteminin modernləşdirilməsi və müştəri bazasının idarəetmə alətlərinin qurulması üçün;

İnsan resurslarının inkişafı – yeni ixtisaslı kadrların cəlb olunması və mövcud heyətin təliminə yönəlik xərclərin qarşılanması;

Kapital strukturunun balanslaşdırılması – gələcək maliyyə borclanmalarının qarşısının alınması üçün sərbəst vəsait ehtiyatının yaradılması.

Bu addımlar Emitentin uzunmüddətli maliyyə sabitliyini gücləndirəcək, əməliyyat imkanlarını artıracaq və korporativ dəyərlərinin yüksəlməsinə töhfə verəcəkdir.

**24.6 Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri:**

Emitentin nəzərədə tutulan layihələri mövcud deyil.

**24.7 Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:**

Nəzərdə tutulmayıb.

## 25 TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT

**25.1 Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları;**

Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqındaAzərbaycan Respublikasının Qanunu, "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

25.2 **Səhmlərin növü;** adi, adlı, sənədsiz

**25.3 Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcudolan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə);**

Mövcud səhmlər-Hər birinin nominal dəyəri 2500 (iki min beş yüz) manat olan 2 (iki) ədəd,adi,adlı.sənədsiz səhm

Yeni buraxılacaq səhmlər- Hər birinin nominal dəyəri 2500 (iki min beş yüz) manat olan 80 (səksən) ədəd adi, adlı, sənədsiz səhm

**25.4 Səhmlərin dövlət qeydiyyat nömrəsi (tədavüldə olan):** AZ1001026678

**25.5 Səhmlərlə təsbit olunan hüquqlar:**

- Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi,digər qanunvericiliklə və bu nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- Bu nizamnamə və qanunverciliklə müəyyən edilmiş qaydada Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- Ümumi Yığıncağın çağırılmasınə tələb etmək;
- Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protoklolunun surətini tələb etmək;
- Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- Cəmiyyətin xalis mənfəətinfən dividend almaq;
- Cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək, cəmiyyət tərəfindən kütləvi buraxılmış səhmlərə münasibətdə nizamnamə kapitalındakı pay faizinə mütənasib olaraq üstünlük hüququna malik olmaq;
- Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri

yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

- Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

**25.6 Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**
Məhdudiyyət mövcud deyil.

**25.7 Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**
Milli Depozit Mərkəzi Azərbaycan Respublikasının ərazisində depozitarsisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Ünvan: Həsən bəy Zərdabi prospekti 2 A, Bakı, AZ1141, Şokolad TowerTelefon: +994 (12) 538 31 90
E-mail: info@mdm.gov.az

**25.8 Divindend siyasəti:**
Cəmiyyət dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik), illik və ya Cəmiyyətin Ümumi Yığıncağının qərarı ilə müəyyən edilmiş müddətlərdə dividendlər ödəyə bilər. Cəmiyyətin dividendlərin ödənilməsin barədə öhdəliklər onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Adi səhm üzrə dividend Cəmiyyətin xalis mənfəətindən səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülümüş hissəsidir.

**25.9 Üstünlük hüququ tətbiq etdiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnu tətbiq edilmədiyi barədə qeyd:**
Səhmdarlar "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 56-cı maddəsinə əsasən, səhmdar cəmiyyətin əlavə səhmlərinin əldə olunmasında üstünlük hüququna malikdirlər. Üstünlük hüququnun həyata keçirilməsi üçün səhmlərin dövlət qeydiyyatına alındığı tarixdən etibarən emitent tərəfindən 5 (beş) iş günü ərzində sifarişli poçt vasitəsilə və ya elektron üsulla hər bir səhmdara bildiriş göndərilir. Səhmdar bildirişi aldığı gündən etibarən 10 (on) iş günü ərzində öz üstünlük hüququndan istifadə etmək barədə yazılı tələbini cəmiyyətin icra orqanına təqdim edə bilər. Bu müddət ərzində tələb təqdim edilmədikdə, səhmdar həmin hüquqdan imtina etmiş hesab olunur və həmin səhmlər növbəlik qaydasında digər investorlar tərəfindən əldə edilə bilər.

**25.10 Səhmlərin geri satın alınma şərtləri (olduqda):**
Nəzərdə tutulmayıb

**25.11 Səhmlərin konvertasiyası şərtləri (olduqda):**
Yoxdur.

**25.12. Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Səhmdarın ümumi yığıncağının

14.07.2025-ci il tarxili, 07/25 saylı Protokolu.

**25.13 Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):**

Yoxdur.

**25.14 Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat:**

Məcburi təklif mövcud olmamışdır.

**25.15 Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən vergi tutulması barədə emitentinöhdəliyi:**

Hər bir səhmdar Cəmiyyətin illik mənfəətinin məbləğindən malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend alır.Vergi Məcəlləsinin 122.1-ci maddəsinə əsasən rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur. Digər tərəfdən isə Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1- dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənənbazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad edilmişdir

## 26 TƏKLİFİN ŞƏRTLƏRİ

**26.1 Təklifin və yerləşdir başlanma və başa çatma tarixləri:**

Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Abunə yazılışına səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra və ya mövcud səhmdarların üstünlük hüququndan istifadəyə münasibəti bildirən bildirişləri aldıqdan sonra başlanılacaq və 3 (üç) iş günü müddətində davam edəcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir.

Səhmlərin yerləşdirilməsinə Emitent tərəfindən səhmlərin yerləşdirilməsinin başlama tarixi elanda qeyd olunan tarixdə başlanılacaq və 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcəkdir:

- ilk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- digər investorlar arasında səhmlərin yerləşdirilməsi.

Səhmlər yalnız nağdsız qaydada, manatla, nominal dəyəri olan 2,500 manatla yerləşdiriləcəkdir.

**26.2 Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**

Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**26.3 Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:**

Təklif "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**26.4 Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri:**

Buraxılış üzrə elan olunmuş ümumi 200 000 (iki yüz min) manat məbləğində 80 (səksən) ədəd səhmin yerləşdirilməsi başa çatdıqda.

**26.5 Səhmlərə abunə yazılışının qaydası:**

Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri "Assist Finance İnvestisiya Şirkəti" ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir Abunə yazılışının başlama tarixi səhmlərin dövlət qeydiyyatına alınmasından 15 (on beş) iş günü sonra başlanacaqdır. Abunə yazılışı 3 iş günü müddəti davam edəcəkdir.Abunə yazılışı başa çatdıqdan sonra 2 iş günü ərzində emitent və ya anderrayter səhmlərin yerləşdirilməsinin başlanması tarixini elan edəcəkdir. Səhmlərin yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 iş günündən çox olmayacaqdır.

Mövcud səhmdar öz payına mütənasib qaydada səhmləri almaqda üstünlük hüququna malikdir.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Səhmlərə abunə yazılışı investorlar tərəfindən sifarişlərin anderrayterə təqdim edilməsi ilə həyata keçirilir.

**26.6 Abunə yazılışının minimum və maksimum məbləği:**

Abunə yazılışının minimum və maksimum qiymətləri nəzərdə tutulmayıb.

**26.7 Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası:**

Abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra onların geri çağırılmasını tələb edə bilməzlər.

**26.8 Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası:**

Səhmlərin yerləşdirilməsi zamanı investorlar tərəfindən eyni qiymət ilə təqdim edilən sifarişlərdə səhmlərə tələb təklifdən çox olduğu təqdirdə səhmlər investorlar arasında onların sifarişlərində göstərilmiş səhmlərin miqdarına uyğun olaraq

mütənasib miqdarda yerləşdirilir.

**26.9 Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib-edilmədiyinin şərtləri:**

Sifarişlər elan olunmuş məbləğ həddində qəbul edilir və səhmlərin nominal dəyəri ilə yerləşdirilir.Mövcud səhmdarlar nizamnamə kapitalındakı paylarına mütənasib qaydada üstünlük hüququndan istifadə etdikdən sonra növbəlilik qaydasında sifarişlərə baxılır. Bir şəxs tərəindən veriləcək sifariş həcminə limit qoyulmamışdır.

**26.10 Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası:**

Səhmlərin dəyəri nağdsız qaydada,milli valyutada manatla ödənilir və bu pul vəsaiti kliring təşkilatının üzvü olan "ABB" ASC-də emitentin açdığı müvəqqəti cari hesaba (yığım hesabına) köçürülür. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən yığım hesabında saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və ya kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyəri investorlar tərəfindən ödənilməsi haqqında məlumatları bankdan aldıqdan sonra növbəti gün ərzində qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir və həmin hesabda kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edilənədək dondurur.

**26.11 Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat:**

Emitentin hal-hazırda nizamnamə kapitalı 2 (iki) ədəd, hər biri 2,500 (iki min beş yüz) manat nominal dəyərində səhmdən ibarətdir.

Yeni buraxılacaq səhmlərin sayı 80 (səksən) ədəd, nominal dəyəri isə hər biri 2,500 manatdır.

Emitentin mövcud səhmdarları səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixdən etibarən ilk 2 (iki) iş günü ərzində üstünlük hüququndan istifadə edərək yeni buraxılan səhmləri mövcud paylarına mütənasib olaraq əldə edə bilərlər. Əgər mövcud səhmdarlar üstünlük hüququndan istifadə etməzsə, həmin paylar abunə yazılışına yazılmış investorlar arasında növbəlik qaydasında bölüşdürüləcək və mövcud səhmdarların nizamnamə kapitalındakı payı azalacaq.

**26.12 Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:**

Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün potensial investorlar həm institusional (banklar, investisiya şirkətləri, hüquqi şəxslər və s.), həm də pərakəndə (fərdi fiziki şəxslər) investor kateqoriyasına aid ola bilərlər. Emitent tərəfindən səhmlərin əsasən mövcud səhmdar tərəfindən alınması nəzərdə tutulsa da, təklif kütləvi xarakter daşıdığı üçün digər investorların da iştirak imkanları qanunvericiliyə əsasən istisna edilmir.

**Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:**

Abunə yazılışı başa çatdıqdan sonra 2 iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlanma tarixi "Bakı Fond Birjası" QSC və emitentin özü tərəfindən elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir.

**26.13 Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına**

**sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat:**

Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirdiyi üçün bu barədə məlumat mövud deyil. Lakin bu bənddə nəzərdə tutulan şəxslərin emissiyada iştirakı istisna olunmur.

**26.14 İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat:**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə həyata keçiriləcəkdir və bu mərhələdə investor kateqoriyaları üzrə xüsusi kvota və ya bölüşdürmə mexanizmi nəzərdə tutulmur. Təklif bütün investorlar – o cümlədən institusional və pərakəndə investorlar, habelə emitentin işçiləri üçün açıqdır və hər hansı bir qrup üçün ayrıca şərt və ya üstünlük hüququ müəyyən edilməmişdir.

**26.15 Yerləşdirmə zamanı bəzi investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat:**

Bu yerləşdirilmədə heç bir investor qrupuna imtiyazlı alışın təşkili nəzərdə tutulmayıb.

**26.16 Səhmlərin təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə səhmlərin qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:**

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 2500 (iki min beş yüz) manat təşkil edir.

**26.17 Satış qiymətinin açıqlanma qaydası:**

“ALPA” ASC-nin səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra həmin səhmlərin satış (təklif) qiyməti bu emissiya prospekti vasitəsi ilə Bakı Fond Birjası QSC-nin veb saytında və Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatların elektron açıqlanması sistemində ictimaiyyətə açıqlanacaqdır. Bu emissiya prospekti ilə bağlı yaranmış bütün suallara cavab almaq üçün maraqlanan şəxslər bilavasitə “Assist Finance İnvestisiya Şirkəti” ASC-yə aşağıdakı əlaqə vasitələri ilə müraciət edə bilər: Telefonlar: +994 12 310 34 20 Elektron poçt: info@assistfinance.az

**26.18 Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Vergi Məcəlləsinə əsasən rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş ) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazlarınnominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

**Səhm alıcısının ödəməli olduğu xərclərin məbləği:**

əqdin məbləğinin 0,05% (min. 0,5 və maks. 500 manat) həcmində BFB komissiyası;

- investisiya şirkətinin xidmət haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci köçürülən məbləğin 0,1%-i.

**26.19 Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi) xidmət haqqı:**

Səhmlərin öhdəlik götürmədən yerləşdirilməsi üzrə anderrayter funksiyasını "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti yerinə yetirəcəkdir. Şirkətə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 12 oktyabr 2018-ci il tarixində verilmiş İŞ-03 nömrəli lisenziya əsasında investisiya şirkəti fəaliyyəti göstərmək hüququ verilmişdir.
Səhmlərin yerləşdirilməsi üzrə xidmət haqqı emitent ilə "Assist Finance İnvestisiya Şirkəti" ASC arasında bağlanmış müqaviləyə əsasən müəyyən olunacaq və müvafiq tarif cədvəlinə uyğun hesablanacaqdır.

## 27 TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**27.1 Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**
Səhmlərin kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında abunə yazılışı yolu ilə həyata keçiriləcəkdir. Səhmlərin listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir: - dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.
Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49 BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, AzərbaycanRespublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**27.1 Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**
BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət

göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarı;
- korporativ qiymətli kağızlar bazarı;
- törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**27.2 Market meyker(lər) barədə məlumat (olduqda):**

Emitentin market meykeri mövcud deyil.

**27.3 Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması:**

Nəzərdə tutulmamışdır.

## 28. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİN HAQQINDA MƏLUMAT

Təklif edilən səhmlərin mülkiyyətçilərin haqqında məlumat mövcud deyil.

## 29 EMİSSİYA XƏRCİ

**29.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:**

Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən, 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslərə kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azaddır.

Qeyd edirik ki, bu vergi azadlığı yalnız fiziki şəxslərə şamil olunur. Hüquqi şəxslər (şirkətlər) üçün dividendlərin vergiləndirilməsi Azərbaycan Respublikasının digər vergi qanunvericiliyi ilə tənzimlənir.

Emissiyanın həyata keçirilməsi ilə bağlı xərclər aşağıdakılardır:

Bakı Fond Birjasının səhmlərin yerləşdirilməsi üzrə komissiyası: 0.05% (ən azı 100 AZN), komissiya haqqı əqdin həcmindən asılı olaraq emitent tərəfindən ödənilir.

Milli Depozit Mərkəzində səhmlərin saxlanması üzrə xidmət haqqı: 0.02% (minimum 50 AZN).

Milli Depozit Mərkəzində mülkiyyətçilərin reyestrinin aparılması üzrə xidmət haqqı: səhmin nominal dəyərinin 0.02% (minimum 50 AZN).

Emissiya prospektinin dövlət qeydiyyatına alınması üçün dövlət rüsumu: 1200 AZN.

Səhmlərin listinqə salınması üçün illik xidmət haqqı: minimum 2000 AZN.

İnvestisiya şirkətinin xidmət haqqı: 0.05% (ən azı 100 AZN).

Yuxarıda göstərilən bütün xərclər Emitent tərəfindən ayrıca qarşılanacaq və emissiyanın nəticəsində cəlb olunacaq vəsaitlərin ümumi məbləği 200,000 (iki yüz min) AZN təşkil edəcəkdir.

## 30. PAYIN AZALMASI

**30.1 Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları:**

Hazırda “ALPA” ASC-nin nizamnamə kapitalı 2 ədəd adi səhm (hər birinin nominal dəyəri 2,500 AZN olmaqla) olmaqla cəmi 5,000 AZN təşkil edir. Bu səhmlərin 100%-i yeganə səhmdar İsmayılova Sima Şirin qızına məxsusdur.

Yeni buraxılış çərçivəsində 80 ədəd yeni adi səhm (nominal dəyəri 2,500 AZN olmaqla) kütləvi təklif üsulu ilə yerləşdiriləcəkdir.

1. Mövcud səhmdar bütün yeni səhmləri alarsa:

Mövcud səhmlər: 2 ədəd

Yeni səhmlər: 80 ədəd

Cəmi səhmlər: 82 ədəd

Mövcud səhmdarın payı: 82/82 = 100%

Nəticə: Payında dəyişiklik baş verməyəcək.

2. Mövcud səhmdar yeni səhmləri ümumiyyətlə almazsa:

Mövcud səhmlər: 2 ədəd

Yeni səhmlər: 80 ədəd (başqa investorlar tərəfindən alınır)

Cəmi səhmlər: 82 ədəd

Mövcud səhmdarın payı: 2/82 ≈ 2.44%

Yeni səhmdar(lar): 80/82 ≈ 97.56%

Nəticə: Mövcud səhmdarın payı 100%-dən 2.44%-ə enir.